# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Azərbaycan Respublikasında turizmin davamlı inkişafının əsas istiqamətləri

**Aynurə İlqar qızı Mədətova**
*Azərbaycan Turizm və Menecment Universiteti*
**E-mail:** madatovaynura@gmail.com

**Rəyçilər:** f.ü.f.d., dos. H.F. Hüseynov,
c.ü.f.d., dos. V.S. Dərgahov

**Açar söz:** qeyri-neft sektoru, Strateji Yol Xəritəsi, turizm, turizm potensiyalı, turizm növləri
**Ключевые слова:** ненефтяной сектор, стратегическая дорожная карта, туризм, туристический потенциал, виды туризма
**Key words:** non-oil sector, Strategic Road Map, tourism, tourism potential, types of tourism

Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və respublikamız yüksək gəlirli ölkələr qrupuna daxil olacaq. Bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanmış dövlət proqramları, strategiyalar və konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. Lakin qeyri-neft sektoru hələ ki, davamlı və yüksək artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılması təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemləri həll edilməmişdir.

Zəngin tarixi-mədəni irsə, əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Azərbaycan Respublikasında turizmin əksər növlərinin inkişaf etdirilməsi üçün geniş şərait mövcuddur. Bütün bu reallıqları nəzərə alaraq, Azərbaycanda turizmin davamlı inkişaf tendensiyası uğurla həyata keçirilmişdir. Azərbaycanın beynəlxalq turizm bazarına inteqrasiyası təmin olunmuş və prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndir.

Azərbaycan Respublikasında son illərdə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, qanunlar qəbul etmiş, layihələr həyata keçirmişdir, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş. Ölkədə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq Prezident Fərmanları və Sərəncamları verilmiş, dövlət proqramları, strategiyalar və konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır.

“ASAN Viza” sistemi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 saylı “Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında” Fərmanı ilə yaradılıb. [1] 2019-cu ilin ilk 6 ayı ərzində “ASAN Viza” ilə Azərbaycana səfər edən əcnəbilərin 78%-i səfər məqsədini turizm olaraq qeyd edib. Hazırda 81 ölkənin vətəndaşı bu sistem vasitəsilə elektron viza əldə edə bilir.

Milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış

turizmin müəyyənləşdirilməsi, ölkəmizin beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib. Strateji Yol Xəritəsində Azərbaycanda turizm potensialından səmərəli istifadə edilməklə turizm sektorunun davamlı inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaqdır.

Ölkənin coğrafi mövqeyini, iqlim mühitini nəzərə alaraq, turizmin bir çox növlərinin inkişafı üçün potensial mövcuddur. Ümumiyyətlə, bu potensialın reallaşdırılması üçün dövlət və özəl sektorların davamlı dəstəyi vacib faktorlardandır biri hesab olunur. Təəssüflə qeyd etməliyik ki, ölkəmiz böyük turizm potensialına malik olmasına baxmayaraq onun çox az bir hissəsindən istifadə olunur. Hazırda Azərbaycan Respublikasının regionlarının və bütövlükdə ölkənin turizm potensialından səmərəli istifadə məsələsi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır.

Azərbaycanda kənd turizmi potensialı - Kənd turizminin inkişafı kənd əhalisinin həyat tərzinə təsir, sosial rifahına göstərir və yeni vərdişlərin yaranmasına səbəb olur. Kənd turizmi turistləri ənənəvi yaşayış məskənlərində yerləşdirməkdən, turistlərin kənd həyatında baş verən hadisələrdə iştirakını təmin etməkdən ibarətdir. Yerli sakinlər turistlərin xərclədiyi vəsait hesabına birbaşa iqtisadi mənfəət qazanırlar. Kənd turizminin inkişafı iri kapital qoyuluşu tələb etmir, lakin ciddi planlaşdırma və proqramlaşdırmaya ehtiyac duyur. Azərbaycan Respublikasının kənd turizminin potensialı mütəmadi olaraq dəyərləndirilməlidir. Kənd turizmi turistləri ənənəvi yaşayış məskənlərində yerləşdirməkdən, onları yerli qida məhsulları ilə təchiz etməkdən və turistlərin kənd həyatında baş verən hadisələrdə iştirakını təmin etməkdən, əhalinin iş yerləri ilə təmin edilməsindən, ərazilərin təbii-iqtisadi potensialından səmərəli istifadə edilməsindən ibarətdir. Kənd turizminin inkişaf etidirilməsində məqsəd regionlarda təbii-coğrafi, sosial-iqtisadi və demoqrafik potensialından, tarixi-mədəni abidələrdən istifadə edilməsi ilə yanaşı, əhalinin istirahəti və sağlamlığının bərpa edilməsi, turizm sənayesində kəndlərin rolunun yüksəldilməsi, bununla bərabər, xarici turistlərtin regionlara cəlb edilməsi və bu sahədən əldə edilən gəlirlərin artırılmasıdır. Azərbaycan Respublikasının kənd turizminin potensialı mütəmadi olaraq dəyərləndirilməlidir. Hazırda ölkəmizin ayrı-ayrı regionlarında, o cümlədən kəndlərində turistlərə yerləşdirmə vasitələri və qidalanma növləri üzrə müxtəlif xidmətlər göstərilsə də, bu xidmətlər yüksək səviyyədə deyil (2, 3, 4).

Kənd turizminin sosial inkişafını təmin edilməsinin çoxlu üstün cəhətləri mövcuddur. Kənd turizminin inkişaf prosesində yerli əhali turistlərə xidmət göstərmək üçün bütün imkanlardan istifadə edir. Azərbaycanda turizmi eyni zamanda kənd turizmini inkişaf etdirmək və turistlərin cəlb edilməsi üçün ölkə ərazisində yalnız iqlim şəraiti, flora və fauna kimi resurslar deyil, həmçinin tarixi əhəmiyyətli mədəniyyət abidələri də mövcuddur. Tarixi-mədəniyyət abidələri respublikamızın müxtəlif regionlarında yerləşir.

Kənd turizminin inkişafı üçün Quba-Xaçmaz, Şəki Zaqatala turizm bölgəsi də böyük əhəmiyyət kəsb edir. Son illərdə bu regionlarda kiçik mehmanxana tipli istirahət mərkəzləri, qonaq evləri tikilmiş və turistlərin istifadəsinə verilmişdir. Quba-Xaçmaz turizm sahəsi kimi formalaşmasına təsir edən əsas aparıcı amil - meşələrin, Xəzər sahillərinin, ekoloji təmiz havanın, inkişaf etmiş nəqliyyat şəbəkəsinin, bağçılığın və heyvandarlığın mövcudluğu sayılır. Eyni zamanda Quba rayonunun, Qusarın, Laza kəndinin dağlıq əraziləri, Böyük Qafqaz dağlarından keçən keçidlər, turizm üçün unikal şərait yaradır.

Ölkənin şimal-qərbində Şəki-Zaqatala ərazisində Qəbələ rayonu yerləşir. Qəbələ rayonu

qoz-fındıq və şabalıd bağları ilə məşhurdur. Rayon ərazisində xalq sənəti növlərindən ağac emalı - Vəndam kəndi, dulusçuluq - Qəmərvan kəndi, xalçaçılı - Laza və Bum kəndləri geniş inkişaf etmişdir.

Azərbaycan Respublikası ərazisində kənd turizmi Abşeron iqtisadi rayonuna yaxın yerləşən Quba-Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonunda inkişaf etməkdədir. Lakin Gəncə-Qazax iqtisadi rayonunda hələdə arzuolunan səviyyədə inkişaf etməmişdir. Kənd turizmini inkişaf etdirilməsi məqsədilə, bu sahədə layihələr hazırlanmalı və həyata keçirilməlidir.

Turizm şirkətlərinə, mehmanxanalara uzunmüddətli aşağı faizli kreditlərin verilməsi, gəlmə turizm forması üçün turizm şirkətlərinə vergi güzəştlərinin tətbiq edilməsi ölkəmizdə turizmin inkişafına güclü təkan verə bilər. Köhnə yolların bərpası, genişləndirilməsi, yeni yolların çəkilməsi ölkə vətəndaşlarınnın və xarici vətəndaşların istirahət ocaqlarına rahat çatması üçün əhəmiyyətlidir. Eyni zamanda xarici turistlərin Azərbaycana gəlib bu yenidənqurma işlərinin şahidi olması ölkəmizin yaxın gələcəkdə əsl turizm ölkəsinə çevriləcəyinə ümid verir (5, 6).

Su nəqliyyatı  turizm də geniş yayılmışdır və çay, kanal, göl kənarı və dəniz sahilizonalar, adalar kimi bir çox rayonlarda əla inkişaf perspektivlərinə malikdir. qalmır. Turizmin bu növünün inkişaf etdirilməsi məqsədilə gəminin yan alması üçün körpülər lazımdır, iri kruiz gəmiləri üçün isə yerüstü ekskursiya xidməti effektiv təşkil edilməlidir. Turizmin bu növündən iri və xırda şəhərlər və kəndlər xalq sənətkarlıq məhsulları və gömrüksüz mallar da daxil olmaqla pərakəndə ticarət, restoranların və yerli ekskursiya xidmətləri ilə mənfəət qazana bilərlər. Gəmi və qayıqlarda dəniz ekskursiyaları təşkil etmək üçün yerli müəssisələr onları icarəyə verə bilər.

Respublikamızda yaradılmış Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyası sağlamlıq ocaqlarının yerləşdiyi ərazisi, sağlamlıq mərkəzlərində müxtəlif əyləncə proqramları, ətraf əraziyə ekskursiyaların təşkili, müalicə xidmətləri haqqında, xidmət personalı haqqında məlumatlar yerləşdirilmişdir kataloqlar hazırlanması işində fəaliyyətə başlamışdır. Eyni zamanda müalicə ehtiyatlarının yerləşdiyi əraziləri göstərən xəritəsi də hazırlanır. Azərbaycanda kurort işinin təşkili və inkişafı etdirilməsi istiqamətində dövlət siyasəti həyata keçirilir. İnsanların istirahəti, müalicəsi, sağlamlığının təmin edilməsi baxımından önəmli rol oynayan sanatoriya-kurortlar eyni zamanda da əhalinin məşğulluğunun artırılması, regionun sosial-iqtisadi inkişafının, infrastrukturun, xidmət və digər sahələrin inkişafında da önəmli rol oynayır.

"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul edildi. Bu proqrama əsasən gələcəkdə Azərbaycanda aşağıdakı dəyişikliklərin olması gözlənilir.

- Respublikada fəaliyyət göstərən müalicə-sağlamlıq mərkəzlərinin beynəlxalq səviyyədə inkişafı
- Sanatoriya-kurort şəbəkəsinin inkişafı bu sektorla bağlı digər sahələrin də inkişafına təsir etməsi
- Sanatoriya-kurort şəbəkəsinin inkişafının nəticəsi olaraq gəlirin artması və həmin kurortların mövcud olduğu eyni zamanda, vaxtın ətraf ərazilərdə yaşayan əhalinin işlə təmin edilməsi göstəricilərinin artması (7, 8).

2018-2020-ci illər üçün "Sağlamlıq turizminin inkişafına dair Fəaliyyət planı"nın layihəsi hazırlanıb. Planda beynəlxalq təcrübədən istifadə edərək tədbirlər həyata keçiriləcəyi nəzərdə tutulmuşdur. Ölkəmizin beynəlxalq səviyyədə tanınması üçün Qalaaltı, Naftalan və Duzdağ kurortlarının beynəlxalq sertifikatlaşmadan keçməsi təmin ediləcəkdir. nümayəndənin iştirak etdiyi forum Dubay Əmirliyinin himayəsi ilə həyata keçirilmişdir. Azərbaycanın turizmin in-

kişafı üçün əlverişli şəraiti olan ölkə kimi dünyada tanıtmaq məqsədilə yeni brendlərin reklam-təbliğat və məlumat-sorğu fəaliyyətinin keçirilməsi, beynəlxalq proqramlar çərçivəsində regional mədəni turizm marşrutlarının yaradılması və inkişaf etdirilməsi və turizm inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlərdən hesab olunur. Turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyənləşdirmək, turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək, turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tədbiq edilməsinə nail olmaq əhəmiyyətlidir. Eyni zamanda turizm sahəsində çalışan insanların peşə hazırlığı səviyyəsini artırmaq və turizm sahəsində zəngin kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək, turizm ehtiyatlarının qorunmasını təmin etmək və bu ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq lazımdır (9).

Kənd turizmi sahəsində ilk növbədə ixtisaslı kadrlar yetişdirmək üçün xarici ölkələrdən mütəxəssislərin dəvət edilməsi, təlimlərin keçirilməsi lazımdır. İşsizliyin azaldılması və kənd təsərrüfatının xüsusilə də geniş yayılmadığı kənd və rayonlarda əhalinin məşğulluğunu təmin etmək üçün kənd turizminin inkişaf etdirilməsi vacib məsələlərdən biridir.

**Məqalənin aktuallığı.** Xarici turistlər Azərbaycana daha çox yay və qış fəsillərində, beynəlxalq tədbirlərin keçirildiyi dövrlərdə gəlirlər. Azərbaycanda ənənəvi yay turizm mövsümü, 2012-ci ildən isə həm də qış turizm mövsümü vardır. Daxili turizm də əsasən yay və qış fəsillərində, həmçinin ölkədə rəsmi bayram günlərində və həftəsonu fəal olur. Halbuki, Azərbaycanın əksər turizm növləri üzrə turistləri bütün ilboyu cəlb etmək imkanları vardır. Bu məqsədlə turizm sektorunun səmərəliliyini və keyfiyyət göstəricilərini yüksəltmək üçün mövsümilik problemi həll olunmalıdır ki, bu da mövcud resurslardan daha optimal istifadə üçün çox zəruridir. Bir sözlə, turizm sahəsində mövsümilik probleminin həlli üçün müvafiq tədbirlər həyata keçirilməlidir. Məqalə də bu mövzuya həsr olunduğundan aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Strateji Yol Xəritəsindən istifadə edilməklə Azərbaycan Respublikasında turizmin davamlı inkişafının əsas istiqamətləri göstərilmiş, bu sahədə görülməsi zəruri hesab olunan mövsümlü tədbirlər nəzərdən keçirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də turizm sahəsində çalışan mütəxəssislər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. “ASAN Viza” sistemi haqqında Əsasnamə.

2. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: TURXAN, NPB, 2016.

3. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.

4. Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı, 2014.

5. Bilalov B. Azərbacanda müalicə-sağlamlıq turizmi: problemləri və perspektivləri.

6. Sultanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: AzTU-nun mətbəəsi, 2013.

7. Mirzəyev A. Azərbaycanda turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətləri. Bakı: ATMU, 2016.

8. Исмаев Д., Основная деятельность туристской фирмы, 2005.

9. Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı: Şərq-Qərb, 2014.

**А.И. Мадатова**

## Основные направления устойчивого развития туризма в Азербайджанской Республике

### Резюме

Развитие ненефтяного сектора в современном мире является основой успехов в социальной и экономической сферах. Принятые законы и реализуемые проекты играют важную роль в реализации государственных программ социально-экономического развития регионов в целом.

**A.I. Madatova**

## The main directions of sustainable development of tourism in the Republic of Azerbaijan

### Summary

The development of the non-oil sector in the modern world is the base for the success in the social and economic sphere. From one hand, the adopted laws and implemented projects play a crucial role in the implementation of state programs. From the other hand, it is important for the socio-economic development of the regions as whole.

**Redaksiyaya daxil olub:** 23.11.2020